*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır  6 oktyabr 2018-ci il  № 77 (2293)  Qiyməti 25 qəpik


*Ön xətdən reportaj*

## “Ürəyimiz Vətən ilə döyünür”



Payızdı... Ətraf aləmin gözəlliyindən, yaşıl, sarı, qızılı rənglərin harmoniyasından aldığım pozitiv enerji bir başqadır. Gözlərim ilahinin bəxş etdiyi gözəlliyi seyr etməkdə, qəlbim isə səngərdə igid oğullarımızla kəlmələşməkdədi. Qəribədir, payız fəsli ruhuma nə qədər sakitlik gətirsə də, oğullarımızla xəyali söhbətim qanımı bir o qədər coşdurur. Sözlə ifadə etməyə çətinlik çəkdiyim duyğuların bəxş etdiyi ovqatla yolumuza davam edirik...

Gözəl mənzərəni seyr edə-edə, heyrətamiz təbiətdən zövq ala-ala, uzun-uzadı yolumuzu arxada qoyub düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinə çatırıq. Mayor Vüsal Məmmədov şəxsi heyətin mənəvi-psixoloji vəziyyətindən, döyüş, atəş, sıra hazırlıqlarının yüksək səviyyədə olmasından söz açır: "Şəxsi heyətin sağlam mənəvi-psixoloji durumu və döyüş ruhu qələbəni təmin edən ən başlıca amillərdəndir. Müasir dövrdə Azərbaycan əsgərinə göstərilən diqqət və qayğı, yaradılan yüksək məişət şəraiti onların əsgəri xidmətlərini uğurla keçirmələri üçün zəmin yaradır. Prezident, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısı hər an əsgərlərimizin üzərindədir. Bu qayğının nəticəsidir ki, əsgərlərin məişət şəraiti yüksək səviyyəyə çatdırılıb. Hərbi hissələrimizdə müasir yeməkxanalar, yataqxanalar, hamam və camaşırxanalar şəxsi heyətin istifadəsinə verilib. Şəxsi heyətimiz də yaradılan yüksək səviyyəli şəraitin qarşılığında xidmətlərini düzgün təşkil edir və keçirilən təlimlərdə müvəffəqiyyət qazanır. Hərbi qulluqçularımız düşmən hücumlarının qarşısını almağa, işğal altında olan torpaqlarımızı istənilən an azad etməyə hazırdırlar. Aprel zəfəri bir daha təsdiqlədi ki, Azərbaycan Ordusu doğma yurd-yerlərimizi geri qaytarmaq üçün qarşısında heç bir əngəl tanımır, torpaqlarımız üçün canlarından keçən hər bir şəhidimizin qisasını almağa hazırdır. Bu gün ordu sıralarında Mübariz, Rauf, Samid... kimi mərd, cəsur oğullarımız xidmət edirlər".

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri Gürcüstanın Azərbaycandakı səfiri ilə görüşüb



Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov Gürcüstanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfiri Azərbaycanda diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Ölkəmizdə səfir kimi fəaliyyətə başlamasından məmnun olduğunu bildirən diplomat Azərbaycan-Gürcüstan əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib.

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət, ikitərəfli hərbi əməkdaşlıq və digər məsələlər müzakirə olunub.



# Raket və artilleriya bölmələrinin taktiki təlimləri keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, müxtəlif təlim mərkəzlərində Raket və artilleriya qoşunlarının taktiki təlimləri keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bölmələrin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə gecə və gündüz vaxtlarında keçirilən təlimlərdə döyüş atışları icra olunub.

Şəxsi heyət qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**5 oktyabr 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Novruzlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Ürəyimiz Vətən ilə döyünür"

(Əvvəli 1-ci səhifədə)

Səngəri doğma evi sayan, torpaqlarımız uğrunda canından keçməyə hazır olan "Öldü var, döndü yox" devizi ilə xidmət edən əsgərlərimizlə görüşün məqamı yetişir. "Cənab mayor, bölüyün dayaq məntəqəsində heç bir hadisə baş verməyib" sözləri ilə leytenant Kənan Məmmədov bizi qarşılayır. Zabit Vüsal Məmmədov bölmənin gündəlik fəaliyyətini yoxlayır və döyüş xidmət jurnalına döyüş növbətçiliyinin aparılma qrafikinə müvafiq qeydlər edir. Bölmənin döyüş hazırlığından, şəxsi heyətin döyüş ruhunun yüksək səviyyədə olmasından söz açan leytenant K.Məmmədov bildirir ki, Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə işğal altında olan torpaqlarımızı azad etməyə, düşməndən xalqımızın başına açdıqları əzabəziyyətin qisasını almağa hazırdılar: "Əsgərlərimizin döyüş ruhu olduqca yüksəkdir. Onlar Azərbaycan Ordusunun gücünü bir daha göstərmək, əzəli torpaqlarımızı işğalçılardan azad etmək məqsədilə xidmət edirlər. Məqsədimizə nail olmaq üçün təhsil müddətində peşəkar müəllimlərimiz tərəfindən bizlərə öyrədilən hərbin sirlərini onlarla bölüşürük. Bunun nəticəsidir ki, əsgərlərimiz erməni qəsbkarlarının təxribatlarının qarşısını alaraq, onlara layiqincə cavab verirlər".

Növbəti həmsöhbətim Bərdə rayonundan ordu sıralarına çağırılan əsgər Məhəmmədəli Mustafayevdir. "Hərbi xidmət dövründə ailəmizdən, evimizdən, əzizlərimizdən uzaq düşürük. Bəzi hallarda isə onlar üçün darıxırıq. Doğma elindən-obasından, isti ocağından didərgin düşən Azərbaycan vətəndaşı olaraq işğalda olan torpaqlarımızı düşünəndə anlayıram ki, o həsrətin qarşısında bu həsrət deyil. Mənim əsas həsrətim torpaq həsrətidi, xalqımıza sevinc bəxş etmək həsrətidi, qisas həsrətidi, elimizə, obamıza Böyük Qələbəni bəxş etmək həsrətidi..."

- Vətən - səcdəgahdır, toxunulmazdır, müqəddəsdir. Vətən - şəhidlərimizin uğrunda can verdikləri, mənəviyyatı, dili, bayrağı, mədəniyyəti və əxlaqı bir olan millətimizin üzərində yaşadığı müqəddəs məkandır. Ata-babalarımızdan bizə əmanət olan yurdumuzu,



mədəniyyət xəzinəmizi, dilimizi, mənəviyyatımızı qorumaq, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etmək müqəddəs borcumuzdur. Vətəni sevmək, göz bəbəyi kimi qorumaq, onun torpağının, daşının qədrini bilmək, sözün əsl mənasında, mübariz və mərd Vətən övladlarının ən nəcib və müqəddəs vəzifəsidir. Bu gün biz bu müqəddəs vəzifəmizin öhdəsindən komandirlərimizin köməyilə layiqincə gəlirik. Arzu edirəm ki, torpaqlarımızı azad edəcəyimiz gün Kəlbəcərdəki Sultanheydər dağına Azərbaycanımızın üçrəngli bayrağını sancanların sırasında olum. Bu sözləri Qax rayonundan hərbi xidmətə çağırılan, Ali Baş Komandan İlham Əliyevin döyüş əmrini səbirsizliklə gözləyən əsgər Adil Qədirli deyir.

Ordu sıralarına Daşkəsən rayonundan çağırılan əsgər Orxan Bayramov isə xidməti dövründə ən yaddaqalan günündən söz açır: "İlk dəfə döyüş növbətçisi çıxdığım gün heç vaxt yadımdan çıxmayacaq. Etiraf edim ki, həmin gecə həyəcanlı idim. Bu qorxu həyəcanı deyildi. Xalqımın, millətimin və torpaqlarımızın keşiyini çəkmək, erməni qəsbkarlarının hücumlarının qarşısını layiqincə almaq həyəcanı idi. Məhz həmin gecə təlimat zamanı leytenant Kənan Məmmədovun "Orxan, sən bu gün ilk dəfədir ki, döyüş növbətçisi çıxırsan. Bir şeyi unutma ki, arxanda qalan evlərdə sən və sənin kimi əsgərlərimizin sayəsində firavan yaşayırlar. Həmin evlərdə yanan işıqlar sizlərin sayəsində yanır" sözləri ömürlük yaddaşıma həkk olundu. Arzu edirəm ki, tez bir zamanda Ali Baş Komandanımızın döyüş əmri ilə torpaqlarımızı azad edib, döyüş növbətçiliklərimizi Xocalıda, Laçında, Xankəndidə... davam etdirək".

Əsgər Kamran Rüstəmov da əzəli torpaqlarımıza kənardan baxarkən çəkdiyi ağrıdan söz açır. "Doğma Qarabağımız düşmənin tapdağındadır, öz xalqının ona sahib çıxacağı günü gözləyir. Qarabağ bizim sərvətimiz, milli kimliyimiz, görən gözümüz, döyünən ürəyimizdir. Qarabağımızı işğaldan azad edəcəyik, xalqımız sevinc göz yaşına qərq olacaq. Ali Baş Komandanımızın rəhbərliyi ilə yenidən doğma Qarabağımıza qovuşacağıq. Soydaşlarımızın qanına susayan düşmənlərdən qisas alacağıq".

Digər əsgərlər İlham Lətifov, Adil Qədirli, Vünyamin Məhyəddinov və başqaları Qarabağ həsrətindən, Ali Baş Komandanımızın döyüş əmri ilə Azərbaycan xalqına Böyük Qələbəni bəxş edəcəklərindən danışdılar.

Torpaqlarımızın keşiyini çəkən oğullarımızla söhbət əsnasında bir daha əmin olduq ki, bu gün vətənpərvər hərbçilərimiz Vətənimizin keşiyində dəyanətlə dayanaraq, ürəyimiz Vətən ilə döyünür deyirlər. Onlar Qarabağımızın üzərindən qara buludları dağıtmağa hazırdırlar. Tezliklə işğaldan azad ediləcək bu torpaqlarda sülh, əmin-amanlıq bərpa olunacaq.

**Baş leytenant Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar C.CƏFƏROVUNDUR**

# Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlığın hazırkı vəziyyəti müzakirə edildi

*Pakistan-Azərbaycan arasında İşçi qrupu səviyyəli görüşün Protokoluna əsasən, Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyəti Bakıda təşkil olunan "Psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr üzrə təcrübə mübadiləsi"ndə iştirak etdi.*



Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev briqada generalı Reyhan Naimin rəhbərlik etdiyi Pakistan nümayəndə heyəti ilə görüşdü.

Tərəflər hərbi əməkdaşlığın hazırkı vəziyyətini müzakirə edərək mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr üzrə hər iki ölkə ordusunda aparılan işlər barədə fikir mübadiləsi apardılar.

Sonra mövzu barədə ikitərəfli brifinq təqdim edildi, fikir mübadiləsi aparıldı, görüş iştirakçılarının sualları cavablandırıldı.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsində də Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin nümayəndələri ilə "Psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr üzrə təcrübə mübadiləsi" mövzusunda ikitərəfli əməkdaşlıqla bağlı görüş keçirildi.

Tədbirdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabit və dövlət qulluqçuları, Pakistan Silahlı Qüvvələrinin nümayəndələri və Azərbaycandakı hərbi attaşesi iştirak edirdilər.

Tədbiri polkovnik-leytenant Emin Səfərov açaraq Azərbaycanın dili, dini, tarixi, coğrafiyası, sərhədləri, iqlim qurşaqları, dövlət quruluşu və atributları, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında geniş məlumat verdi. Bildirdi ki, Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunda ictimaiyyətlə əlaqələrin əsas istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilib:

- Ordu quruculuğu sahəsində həyata keçirilən islahatlarla ölkə ictimaiyyətinin məlumatlandırılması, döyüş və mənəvi-psixoloji hazırlıqda əldə edilən nailiyyətlərin təbliği, ictimaiyyətlə ordunun əlaqələri və hərbi qulluqçuların xidmət şəraiti ilə tanış olması üçün imkan yaradılması, Vətəni müdafiənin hər bir vətəndaşın borcu olması, hərbi xidmətin şərəfli iş olduğunu ictimaiyyətin diqqətinə çatdırılması, gənclərdə hərbi vətənpərvərlik hisslərini tərbiyə etmək və s.

Zabit çıxışında ictimaiyyətlə əlaqələrin təşkili formalarına da toxunaraq qeyd etdi ki, Təhsil, Mədəniyyət, Gənclər və İdman nazirlikləri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və eləcə də rayon, şəhər icra hakimiyyətləri ilə birgə tədbirlər həyata keçirilir.

Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin briqada generalı Reyhan Naim səmimi münasibətə görə Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürünü bildirərək qeyd etdi ki, Pakistan ordusunda ictimaiyyətlə əlaqələr həm də mətbuat xidmətinin fəaliyyəti ilə birgə qurulub. “Bizim ölkədə ordunun fəaliyyəti haqqında informasiyalar həm milli, həm də beynəlxalq medianın istifadəsinə verilir. Hazırda Pakistan ordusu dünyanın güclü orduları sırasındadır. Siz "Açıq qapı" günləri keçirirsiniz, bizdə də ona oxşar "Əsgər günü" təşkil edilir. Daim bir-birimizə dəstək olmalı, fikir mübadiləsi aparmalıyıq.”

Polkovnik-leytenant Amir Zaman da Pakistan ordusundakı ictimaiyyətlə əlaqələr işi haqqında geniş məlumat verdi.

Sonra mövzu barədə brifinq təqdim edildi. Brifinqdə Pakistan İslam Respublikasının 1947-ci ildən bu günə kimi keçdiyi inkişaf yolu əks olunurdu.

Qonaqlar daha sonra Müdafiə Nazirliyinin Sənədli və Tədris Filmləri Kinostudiyasında oldular.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Türkiyə Silahlı Qüvvələrinin nümayəndə heyəti Azərbaycandadır



Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının Protokoluna əsasən, Türkiyə Respublikası Silahlı Qüvvələri Quru Qoşunlarının nümayəndə heyəti Bakıda səfərdə oldu. Öncə qonaqlar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını ziyarət etdilər.

Tərəflər əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi apardılar, ikitərəfli əlaqələrin daha da yüksəldilməsi imkanlarını müzakirə etdilər.

Hərbi Akademiyanın rəis müavini general-mayor Azər Əliyev qonaqları səmimiyyətlə salamlayaraq münasibətlərin daha yüksək səviyyəyə çatması üçün bu cür görüşlərin vaxtaşırı təşkilinin vacibliyini qeyd etdi. Akademiyanın rəis müavini bildirdi ki, Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətləri günü-gündən inkişaf edir. “Əlaqələr bütün sahələrdə özünü göstərir. Azərbaycan Türkiyənin hərbi təhsil müəssisələri ilə sıx əməkdaşlıq edən ölkədir və Hərbi Akademiyanın rəhbərliyi bu cür görüşləri daim dəstəkləyir.”

Türkiyə nümayəndə heyətinin rəhbəri polkovnik Şinasi Havuz səmimi qəbula və göstərilən diqqətə görə minnətdarlığını bildirdi. Belə görüşlərin təcrübə mübadiləsi üçün gözəl imkan olduğunu dedi. Polkovnik elmi potensialın daha da artırılması, ümumi elmi məkanın yaradılması baxımından görüşlərin sıx təşkil olunmasında qətiyyətli olduqlarını və əldə olunan elmi nailiyyətlərdə qarşılıqlı istifadə olunmasını məqsədəuyğun hesab etdiyini qeyd etdi.

Qonaqlara Azərbaycan tərəfindən Xarici dil və Tərəfdaşlıq Mərkəzi, Türkiyə tərəfindən isə Quru Qoşunlarının Dil Məktəbi haqqında brifinqlər təqdim olundu. Bildirildi ki, Xarici dil və Tərəfdaşlıq Mərkəzində intensiv təşkil olunan xarici dil kurslarında hərbi qulluqçuların xarici dillərdə ünsiyyət bacarığının formalaşması və vərdişlərinin təkmilləşdirilməsi həyata keçirilir.

Sonda hər iki ölkənin məktəblərindəki mövcud tədris proqramlarının tərtibatı və təkmilləşdirilməsinə dair müzakirələr aparıldı. Qarşılıqlı maraq kəsb edən digər məsələlər müzakirə olundu.

Səfər çərçivəsində nümayəndə heyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də oldu. Qonaqları ölkəmizdə görməkdən məmnunluğunu ifadə edən məktəbin rəisi general-mayor Fizuli Salahov belə səfərlərin sarsılmaz dostluğun və qardaşlığın göstəricisi olduğunu dedi. Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə, o cümlədən hərbi təhsil sahəsində olan çoxtərəfli əlaqələrin önəmindən bəhs etdi. Həmçinin general belə görüşlərin əməkdaşlığın daha da genişlənməsi, təcrübə və qarşılıqlı fikir mübadiləsi baxımından vacibliyini vurğuladı.

Nümayəndə heyətinin rəhbəri polkovnik Şinasi Havuz Azərbaycanda olduqlarından şərəf duyduqlarını, dövlətlərimiz arasında bütün sahələrdə olduğu kimi, hərbi təhsil istiqamətində də əməkdaşlığın yüksək səviyyədə qurulduğunu və daim genişləndiyini diqqətə çatdırdı.

Qonaqlara Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin tarixini əks etdirən slayd görüntülər təqdim olundu. Nümayəndə heyəti hərbi təhsil ocağının tədris prosesi ilə yaxından tanış oldu. Onlara tədrisin təşkili ilə bağlı ətraflı məlumat verildi.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# “Ən yaxşı tank bölüyü” adı uğrunda yarış başa çatıb



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2018-ci il döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunda "Ən yaxşı tank bölüyü" adı uğrunda keçirilən yarış başa çatıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yarışda tank bölmələrinin döyüş hazırlığı yoxlanılıb, heyətlərin bilik və bacarıqları artırılıb, döyüş vərdişləri təkmilləşdirilib. Komandalar sürücülük, gecə və gündüz vaxtı atış, fiziki hazırlıq və digər məşğələlər üzrə məqbulları müvəffəqiyyətlə yerinə yetirib, eləcə də verilən tapşırıqlar dəqiq, vaxtında və düzgün icra olunub.

Yekunda "Ən yaxşı tank bölüyü" adına layiq görülən heyət müəyyənləşib. Komissiya heyətinin yekun nəticələrinə əsasən, birinci yerə "Beyləqan" komandası, ikinci yerə "Bərdə" komandası, üçüncü yerə "Şəmkir" komandası layiq görülüb.

AZƏRBAYCAN ORDUSU

# Hərbi dənizçilərlə Hərbi Prokurorluq nümayəndələrinin görüşü keçirilib



Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında imzalanan 2018-ci il üçün birgə tədbirlər planına əsasən Hərbi Dəniz Qüvvələrində görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə hərbi qulluqçulara qarşılıqlı davranış qaydaları və münasibətlərin nizamnamənin tələblərinə uyğun qurulması barədə brifinq təqdim olunub.

Sonda görüş iştirakçıları mövzu ilə əlaqəli aktual məsələləri müzakirə edib və bu cür tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

# Naxçıvan Qarnizonu üzrə avtomobil texnikalarına baxış-müsabiqə keçirilib

*Naxçıvan Qarnizonu qoşunlarında istismarda olan avtomobil texnikalarına baxış-müsabiqə keçirilib. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, müsabiqəyə ordu, birləşmə və hissələrə təhkim edilmiş müxtəlif markalı və təyinatlı minik avtomobilləri, mikroavtobus və avtobuslar cəlb edilib.*

Qeyd edək ki, Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyətinin artırılması istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublika ərazisindəki hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır.

*Döyüş hazırlığı*

# "Azərbaycan Ordusu tezliklə Böyük Qələbəni qazanacaq"

*Hazırda müharibə şəraitində yaşayan respublikamızda ordu quruculuğu ən prioritet məsələlərdən biridir və bu amil ölkə rəhbərliyi üçün xüsusi əhəmiyyət kəsb edir. Son illərdə Azərbaycan Ordusu əsaslı inkişaf yolu keçib, ordumuzun maddi-texniki bazası hərtərəfli müasirləşdirilib, döyüş qabiliyyəti artıb. Maddi-texniki bazası durmadan təkmilləşdirilən ordumuzun peşəkarlığı da artıb. Son illər ən müasir silahlarla - zirehli maşınlar, tanklar, artilleriya qurğuları və digər texnikalarla təchiz olunan Azərbaycan Ordusu düşmənin istənilən hədəfini məhv etməyə qadirdir.*

Əvvəlcədən müəyyən edilmiş plana əsasən birlik, birləşmə, hissə və bölmələrin ərazi müdafiəsi çərçivəsində birgə döyüş tətbiqinin planlaşdırılması və qarşılıqlı əlaqənin təşkili üzrə müxtəlif səviyyələrdə qərargahlar arasında əlaqələndirmənin təmin edilməsi məqsədilə keçirilən təlimlər və şəxsi heyətin döyüş hazırlığı təcrübəsinin artırılmasına xidmət edən yarışlar da Azərbaycan Ordusunun gücünün, qüdrətinin sübutudur.



Bu qəbildən olan "Ən yaxşı özüyeriyən artilleriya divizionu" adı uğrunda keçirilən yarışlarda Azərbaycan Respublikası ərazisinin müdafiəsi və təcavüzkarın məğlubiyyətə uğradılması məqsədilə birlik və birləşmələrimizin birgə fəaliyyətinin planlaşdırılması və təşkili, hərbi qulluqçuların bilik və təcrübəsinin artırılması, ölkə ərazisinin mühafizəsi və müdafiəsi, əks-hücuma keçməklə təcavüzkarın əsas qüvvələrinin darmadağın edilməsi ilə bağlı məsələlər diqqət mərkəzində oldu. Yarış, həmçinin qarşıya qoyulan bir sıra məqsədlərin - şəxsi heyətin döyüş ustalığını artırmağa, ixtisas, taktiki, atəş və fiziki hazırlığı, nəzəri və praktiki vərdişlərini təkmilləşdirməyə, döyüş zamanı uzlaşma və yüksək idarəetmə qabiliyyətini formalaşdırmağa yardım etdi.

Azərbaycan Ordusunda "Ən yaxşı özüyeriyən artilleriya divizionu" adı uğrunda keçirilən yarışda fərqlənən bir bölmənin şəxsi heyəti ilə görüşmək imkanı qazanırıq.

Şəxsi heyətlə görüşdükdən və hərbi hissədə yaradılan şəraitlə tanış olduqdan sonra bir daha əmin olduq ki, qazanılan uğurun səbəbi maddi-texniki təminat, nizam-intizamın artırılması, döyüş qabiliyyətinin formalaşdırılmasına ilə yanaşı, dünyanın qabaqcıl təcrübəsinin öyrənilməsi və ordumuzda tətbiqi ilə də əlaqədardır.

Hərbi hissədə quraşdırılmış təlim-məşq qurğuları deməyə əsas verir ki, ordumuz ən müasir standartlar əsasında qurulub. Burada təlim-məşq qurğuları ilə keçirilən dərs prosesini izləyirik. Mayor Azad Cəfərov bildirdi ki, bu gün ordumuzda bütün istiqamətlərin inkişafına diqqət yüksək səviyyədə yerinə yetirilir. Ancaq nizam-intizamın və döyüş qabiliyyətinin artırılmasına xüsusi nəzarət edilir. Ordumuzun döyüş qabiliyyəti günü-gündən artır, güclənir. Bu gün ordumuz istənilən vəzifəni icra edə bilər. Təlim-məşq qurğuları da inkişafın bariz nümunəsidir. Ordumuzda dünyanın qabaqcıl təcrübəsinin və müasir döyüş taktikasının tətbiqi bizləri çox sevindirir. Bu gün Azərbaycan Ordusunun əldə etdiyi nailiyyətlər - aprel qələbəsi, Günnüt zəfəri kimi uğurlar inkişafımızın nəticəsidir. Dünyanın qabaqcıl təcrübəsinə əsaslanan Azərbaycan Ordusu tezliklə Böyük Qələbəni qazanacaq.

Baş leytenant Fərid Əliyev bildirdi ki, təlim-məşq qurğusu özüyeriyən haubitsanın heyətinin döyüş işinə hazırlanması və onların bacarıqlarının təkmilləşməsi üçün nəzərdə tutulub. Artilleriya hazırlıq kursunun tələblərinə əsasən qurğu vasitəsilə örtülü atəş mövqeyindən düzünə tuşlama və elektron atəş metodu ilə virtual hədəflərə atəş aparmaq mümkündür. Gördüyünüz qurğu tuşlama mexanizmlərinin idarəetmə orqanlarının, nişangahların görmə sahəsinin və heyətin iş yerlərində fəaliyyətinin imitasiyasını təmin edir.

Baş leytenant Xaliq Əliyev isə qeyd etdi ki, mövcud qurğuda sürücülükdən başqa, heyətin bütün fəaliyyəti yerinə yetirilir. Praktiki atışı bu qurğu vasitəsilə yerinə yetirmək mümkündür. Texnikanın hazırlanması, döyüşə gətirilməsi, müəyyən edilmiş istiqamət üzrə tuşlanması, atış tapşırıqlarının yerinə yetirilməsi, hətta atəşin aparılması qurğu vasitəsilə həyata keçirilə bilir. Döyüş maşınlarında olduğu kimi, təlim qurğusuna da mərmi yükləmək və ondan atəş açmaq olur. Şəxsi heyətin qiymətləndirilməsi isə kompüter vasitəsilə yerinə yetirilir. Kompüter hər bir heyət nəfərinə və ümumilikdə şəxsi heyətə qiymət çıxardır. Nəticədə yanacaq işlətmədən, texnikanı istifadə etmədən təlim-məşq qurğusunda bütün fəaliyyəti yerinə yetiririk.



Top komandirlərinə müasir təlim-məşq qurğuları vasitəsilə dərs keçən kapitan Niyaməddin Məmmədov bildirdi ki, bu qurğu nəzərdə tutulan heyətin 1 və 2 saylı tapşırıqlarını yerinə yetirməsi və qiymətləndirilməsi üçün nəzərdə tutulub. Qurğu vasitəsilə hər həftə top komandirlərindən məqbullar qəbul olunur. Digər qurğularda olduğu kimi, burada da atəşi həyata keçirmək olur. Gördüyünüz kimi, hər bir heyət nəfərinin qarşısında monitor var. Nəzərdə tutulan təlim-məşq proqramı yerinə yetirildikdən sonra kompüter vasitəsilə şəxsi heyətin qiymətləndirilməsi aparılır.

Leytenant Oruc Məmmədov, gizirlər Faiq Gülmalıyev, Əşrəf Cəfərov, kiçik çavuş Əkrəm Nuriyev, əsgərlər Ruslan Salahov, Babək Baxşəliyev və Suracəddin Əzizov da qeyd etdilər ki, təlimlərdə və yarışlarda göstərilən peşəkarlıq, texniki imkanlar istənilən problemin həll edilməsinə şərait yaradır. Onu da vurğuladılar ki, Azərbaycan Ordusu hər an Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazır və qadirdir. "Bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzün bərpasıdır. İşğal edilmiş torpaqlar ilk növbədə azad olunmalıdır. Azərbaycan bayrağı işğal edilmiş torpaqlarımızda - Şuşada, Xankəndidə... qaldırılmalıdır və qaldırılacaqdır". Bugünkü təlimlər və yarışlar bir daha onu göstərir ki, biz hədəfimizə yaxınıq. Vacib olan məqamların biri də ondan ibarətdir ki, Azərbaycan xalqı öz ordusuna güvənir. Bu güvənə əsaslanan Azərbaycan Ordusu və onun şəxsi heyəti öz torpaqlarını müdafiə edir, bundan sonra da müdafiə edəcəkdir".

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**



Hərbi təhsil

# “Övladlarımızı Vətən üçün böyüdürük”

*Bütün peşələr gözəldir, doğmadır. İnsanın peşə seçimi, peşə sevgisi azaddır. Ürəyinə yatan istənilən ixtisası seçə bilərsən, təki o sahəyə həvəs və marağın olsun. Çoxları təsdiq edər ki, müəllimlik peşəsi daha ali və daha ucadır. Müəllimlik insandan böyük məsuliyyət, səbr və diqqət tələb edir.*

Müəllimlər saçlarını sinif otaqlarında, şagirdlərinin arasında ağardır. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə ingilis dili müəllimi işləyən Zemfira Şəfiyeva belə insanlardan biridir. O, 34 ildir ki, bu hərbi təhsil ocağında çalışır. İllərdir ki, bu fənni sevə-sevə gələcəyin zabitlərinə tədris edir. Zemfira Şəfiyeva 2013-2014-cü tədris ilinin nəticələrinə görə tədris əlaçısı olub. "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə mükafatlandırılıb.

Zemfira xanım Azərbaycan Dillər İnstitutunu fərqlənmə diplomu ilə bitirib. Elə o vaxtdan da taleyini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə bağlayıb. Arxada qalan zaman onun saçlarına qar ələyib, əvəzində ona gözəl bir tale qismət edib. Bir sözlə, fəxr ediləsi bir ömür yaşayıb Zemfira xanım.

- Yetirmələrimin uğurlarını eşidəndə, görəndə qürur hissi keçirirəm, - deyə Zemfira Şəfiyeva söhbətə başladı: - Azərbaycan Ordusunun gündən-günə güclənməsi, yenidən qurulması, zabit və əsgərlərimizin peşəkarlığının artması bir müəllim, bir vətəndaş kimi məni çox sevindirir. Ermənі işğalçılarının tapdağında olan torpaqlarımızın azad olunmasına inamımız daha da artıb. Uzun illərdir Cəmşid Naxçıvanski adına Hərbi Liseydə çalışıram. Gələcəyin zabitlərinə ingilis dilini öyrədirəm. İşim üрəyimcədir. Kursantlarımızın savadlı, bilikli və bacarıqlı olmaları üçün mövcud olan bütün imkan və vasitələrdən səmərəli istifadə edirik. Bir vaxtlar dərs dediyim kursantların arasında bu günün generalları da var. Yetirmələrimin uğurları mənim uğurlarımdır. Hər biri ilə fəxr edirəm. Kursantlar bizim gələcəyimiz, Vətənimizin sabahkı qurucularıdır. Sevinirəm ki, bu quruculuq işlərində bir müəllim kimi mən də yaxından iştirak edirəm. Buna görə də həmişə başım uca, alnım açıqdır.

Müəllim və müəllimlik barədə Zemfira xanımın söylədiyi fikirlər çox maraqlı oldu: “Müəllim müqəddəs və şərəfli bir peşədir. Şərəfli olduğu qədər də məsuliyyətlidir. Müəllim işıqdı, nurdu, tükənməyən bir ziyadı, sönməyən bir məşəldir. O, öz işığından, nurundan şagirdlərinə və tələbələrinə də paylayır. Onlara gələcəyə gedən yolun istiqamətini doğru-düzgün göstərir. Müəllim cəmiyyəti irəli aparan təkanverici bir qüvvədir. Təhsil bir vətəndaşın yox, bütövlükdə dövlətin, cəmiyyətin işidir. Biz övladlarımızı Vətən üçün, yurdumuzun müdafiəsi üçün böyüdürük. Kursantlara gələcəyin qurucusu və qəhrəmanları kimi baxır, böyük etimad göstəririk. İnanırıq ki, onlar gələcəkdə etimadımızı doğruldacaqlar. Hərbi liseyin rəhbərliyi tədris üçün əlverişli şərait yaradıb. Bütün bunlar isə tədrisin keyfiyyətini xeyli artırır. Biz də öz növbəmizdə bu şəraitdən bacarıqla istifadə edirik.



Zemfira Şəfiyeva Hərbi liseydə yaşadığı ən yaddaqalan günlərin birindən ürəkdolusu söz açaraq dedi:

- İnsan həyatında əlamətdar günlər çox olur. Mənim üçün həyatımın ən unudulmaz günü 19 aprel 2003-cü ildir. Yaxşı xatırlayıram, həmin gün ümummilli liderimiz Heydər Əliyev Hərbi liseyin 30 illik yubileyi münasibəti ilə məktəbimizə gəlmişdi. Ulu Öndər birbir tədris otaqlarını gəzir, kursantlarla, müəllimlərlə görüşüb söhbət edirdi. Ümummilli Lider həmin gün ingilis dili otağına da gəldi. Bizimlə səmimi görüşüb söhbət etdi. Kursantların biliyi ilə maraqlandı. Onlara dəyərli məsləhətlər verdi. Tövsiyə etdi ki, ədəbiyyatımız və dilimizlə yanaşı, xarici dilləri də yaxşı-yaxşı öyrənin. Gələcəkdə bilikli, bacarıqlı zabit olun.

Zemfira Şəfiyeva söhbətinin sonunda gələcəyinə böyük ümidlər bəslədiyi kursantlardan Emil Hüseynlinin, Vaqif Zülfüqarlının, Elşən Həsənovun, Əmrah İsayevin, İntiqam İmanzadənin, Emil Mustafayevin və başqalarının adlarını çəkdi. Onların xidmətlərində böyük uğur qazanacaqlarını sevinclə qeyd etdi. Həmsöhbətim onu da bildirdi ki, qazanılan uğurların sayəsində xalqımızın ən böyük arzusu həyata keçəcək...

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Hər cür qayğı ilə əhatə olunmuşuq

*Azərbaycan Ordusu təkcə arsenalında olan silah-sursatı ilə deyil, həmçinin şəxsi heyətinin döyüş ruhunun yüksək olması, əsgərlər üçün yaradılmış sosial-məişət şəraiti ilə fərqlənir. Ordumuzdakı inkişafı, müsbət istiqamətli dəyişiklikləri valideynlər "Açıq qapı" günlərində daha yaxından görürlər. Onlara əsgərlərin istifadəsinə verilən camaşırxana, yataqxana, yeməkxana və digər xidməti obyektlər göstərilir. Belə olduğu halda valideynin ürəyində heç bir şübhə qalmır və onlar inanırlar ki, övladları əmin əllərdədir. Hərbi hissədə əsgərlərə valideyn qayğısı ilə yanaşan komandir heyəti, ana qayğısı ilə yemək bişirən xanımlarımız, xəstələndikdə yardım göstərən tibb heyətimiz fəaliyyət göstərir.*

"N" hərbi hissəsində məişət şəraitiylə yaxından tanış olmaq imkanı qazanırıq. Mayor Ceyhun Rzayev yuxarı komandanlığın əsgərlərimiz üçün yaratdığı şəraitdən söz açdı. Zabit bildirdi ki, şəxsi heyətin sosial-məişət şəraitinin yüksək səviyyədə olması onların xidmətlərini düzgün yerinə yetirmələrində müsbət rol oynayır. "Ordumuzun bütün hərbi hissələrində əsgərlərin yüksək səviyyədə xidmət aparması üçün hərtərəfli şərait yaradılıb. Hərbi qulluqçularımızın sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə bütün bölgələrdə yeni hərbi şəhərciklər salınaraq ən müasir avadanlıqlarla təchiz edilib. Ordu sıralarında xidmət edən hər bir hərbi qulluqçu dövlət qayğısını hiss edir və bu etimadı fədakar xidmətləri ilə doğrultmağa çalışır. Təbii ki, bütün bunlar Ali Baş Komandanın şəxsi heyətə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir".

Zabitlə birlikdə yataqxanaya daxil oluruq. Əsgərlərin istirahət etməsi üçün yataqxana



zəruri ləvazimatlarla - çarpayılar, şkaflar və stullarla təmin edilib. Yataqxananın təmizliyi göz oxşayır. Baş gizir Şəmsi Məhərrəmzadənin rəhbərliyi altında bir neçə əsgər yataqxanada səliqə-sahman yaradır. Onlarla həmsöhbət oluruq.

Bölüyün baş çavuşu baş gizir Şəmsi Məhərrəmzadə bildirdi ki, yataqxananın nizama salınması, əsgərlərin üst-başlarının təmiz olması onun işinin tərkib hissəsidir. "Gündəlik yataqxanada səliqə-sahman, təmizlik işləri görülür. Bu birinci növbədə bizlər üçün vacibdir. Yuxarı komandanlıq bu gözəl şəraiti bizlər üçün yaradıb. Ona görə də onu qoruyub saxlamağı bacarmalıyıq. Hər gün təmizlik işlərinə xüsusi nəzarət edilir. Hər həftə köhnə yataq dəstləri yığılır, camaşırxanaya təhvil verilir, yeniləri ilə əvəz olunur. Şəxsi heyətin paltarları mütəmadi yuyulur. Səhər sıra baxışında üst-başının təmiz və səliqəli olması yoxlanılır. Əsgərlərin təyin olunmuş vaxtlarda yuyunması üçün hamam fəaliyyət göstərir. Təbii ki, bütün bunlar bizlər üçün, Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçular üçün yaradılıb.”

Söhbət zamanı baş gizir Ş.Məhərrəmzadə onu da qeyd etdi ki, komandir heyətinin işi təkcə dərs deməklə, səliqə-sahman yaratmaqla bitmir. "Hamımız tabeliyimizdə olan şəxsi heyətin vətənpərvər ruhda xidmət etmələri üçün daim çalışmalıyıq, çalışırıqda. Onlara elə örnək olmalıyıq ki, gələcəkdə cəmiyyət içində nümunəvi davranışları ilə seçilsinlər. Onların heç birini öz balalarımdan ayırmıram. Mən də atayam. Gələcəyə ordumuz üçün iki müsəlləh əsgər yetişdirirəm. Övladlarıma da həmişə ordumuzun inkişafından, xalqımızın qəhrəmanlıq nümunələrindən danışıram. Ən böyük arzum odur ki, onlar da böyüyəndə bizlərə layiqli övlad, dövlətimizə layiqli vətəndaş, ordumuza layiqli əsgər olsunlar. Bu Vətənin övladıyıqsa, borcumuz Vətənə xidmət etməkdir. Hamımız Ali Baş Komandanın əmrinə hər an hazır olan Azərbaycan əsgəriyik."

"Yaradılan şərait ordu rəhbərliyinin bizlərə olan qayğısının nişanəsidir", - deyə əsgər Rafael Burcəliyev söhbətimizə qoşuldu. "Tanışlarımız, dostlarımız hərbi xidmətdən tərxis olub qayıdanda onlardan əsgərlik xatirələrini, gördüklərini danışmaqlarını xahiş edərdik. Hamısı söhbətə "Çağırsalar, yenidən xidmətə gedərəm" sözləri ilə başlayırdı. Səbəbini soruşanda Vətənə xidmətin nə qədər şərəfli peşə olduğunu deyərdilər. Yaradılan şəraitdən elə danışardılar ki, insan əsgərliyə tez getməyi arzu edərdi. Artıq xidmətimin xeyli hissəsini başa vurmuşam. Hər gün dostlarımın dedikləri sözlərin həqiqət olduğunu görürəm. Xidmətimin bitməyini istəmirəm. Burada hər cür qayğı ilə əhatə olunmuşuq. Bu gün, mən də daxil olmaqla, bütün şəxsi heyətimiz yüksək şəraitdə xidmət etdiyimizə görə Ali Baş Komandana, Müdafiə nazirinə minnətdarıq. Ona görə də istənilən an torpaqlarımızın azadlığı uğrunda döyüşlərə atılmağa hazırıq."

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Hərbi quruculuq və dövlət təhlükəsizliyi ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericilik aktları.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, hərbi qanunvericilik və dövlət təhlükəsizliyi ilə əlaqədar qanunvericilik aktlarından istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**

**1. Azərbaycan Respublikasının hərbi quruculuq və dövlət təhlükəsizliyi ilə əlaqədar qəbul edilmiş qanunvericilik aktları.**

**2. Hərbi qulluqçuların hüquq və vəzifələri.**

### *Azərbaycan Respublikasının hərbi quruculuq və dövlət təhlükəsizliyi ilə əlaqədar qəbul edilmiş qanunvericilik aktları*

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra ölkədə siyasi hakimiyyətin böhranlı hala düşməsi və müttəfiq respublikalarda milli-azadlıq hərəkatının genişlənməsi Azərbaycanda Müdafiə Nazirliyinin bərpası üçün real imkanlar açdı. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının Ali Soveti "Milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərar qəbul etdi. Həmin qərarın əsasında Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına əsasən Azərbaycanda Müdafiə Nazirliyi təşkil edildi və milli ordunun yaradılmasına başlandı. 1991-ci il oktyabr ayının 9-da isə Respublika Ali Soveti tərəfindən ordu quruculuğunun hüquqi bazası olan "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun qəbul edildi. Bu qanun ölkəmizdə hərbi quruculuq prosesinin ilk qanunu idi.

1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Əsas Qanunu - Konstitusiyasında da Silahlı Qüvvələrlə və Vətəni müdafiə ilə bağlı maddələr öz əksini tapdı. Belə ki, 9-cu maddədə Azərbaycan Respublikasının öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaratdığı, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğu qeyd edilir.

Azərbaycan Respublikası Milli Məclisinin 10 iyun 1992-ci ildə qəbul etdiyi "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" qanun ən mühüm qanunvericilik sənədlərindən biri oldu. Bu qanunla Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın, əsgəri vəzifənin əsasları, gənclərin hərbi xidmətə hazırlıq qaydaları, hərbi xidmətə çağırışın qaydaları və şərtləri, hərbi vəzifəlilərin və hərbi çağırışçıların hərbi uçot qaydaları, səfərbərlik üzrə çağırışın və səfərbərlikdən tərxisetmə üzrə buraxılmanın əsasları, həmçinin Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün kadrlar hazırlamaq və Silahlı Qüvvələrin daimi döyüş və səfərbərlik hazırlığını saxlamaq məsələləri təsbit edilir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və qanunvericiliyə uyğun yaradılmış digər qoşun birləşmələrində hərbi xidmət keçilməsinin qaydasını müəyyən edən "Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunu 1992-ci il noyabrın 3-də Milli Məclis tərəfindən qəbul olundu. Həmin qanuna görə, hərbi qulluqçular və hərbi vəzifəli şəxslər əsgər (matros), çavuş, gizir (miçman) və zabit heyətlərinə, zabit heyəti isə kiçik, baş və ali zabit heyətlərinə bölünür.

Qanunda həqiqi hərbi xidmətin müddəti ali təhsili olan hərbi qulluqçular üçün 1 il, əsgər və çavuşlar üçün 1 il 6 ay müəyyən edilir.

1993-cü il noyabrın 26-da Azərbaycan Respublikası Milli Məclisi tərəfindən "Müdafiə haqqında" qanun qəbul edildi. Sənəddə Azərbaycan Respublikasının müdafiəsi dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin və əhalinin təcavüzdən qorunmasının təmin olunması məqsədilə dövlət tərəfindən həyata keçirilən siyasi, iqtisadi, hüquqi, hərbi və sosial tədbirlər sistemi kimi göstərilir. Eyni zamanda, qanunda dövlət orqanlarının müdafiə sahəsində səlahiyyətləri müəyyən olunur.

Bu qanunda Azərbaycan Respublikası Prezidentinin Silahlı Qüvvələrin Ali Baş Komandanı olduğu təsbit edilib. Ali Baş Komandan Azərbaycan Respublikasının Konstitusiyası və qanunları çərçivəsində müvafiq orqanların müdafiə sahəsində səlahiyyətlərini, təşkilini və fəaliyyət qaydasını müəyyənləşdirir və onların fəaliyyətinə rəhbərlik edir.

"Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunu 1994-cü il yanvarın 6-da Milli Məclis tərəfindən qəbul olundu. Bu qanun Azərbaycan Respublikasının Konstitusiyasına, digər qanunlarına və beynəlxalq öhdəliklərinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində hərbi vəziyyətin tətbiq edilməsinin əsaslarını, qaydalarını və hüquqi nəticələrini müəyyənləşdirir.

Hərbi vəziyyət Azərbaycan Respublikasının Prezidenti tərəfindən fərmanla tətbiq edilir. Prezident hərbi vəziyyətin tətbiq edilməsi haqqında fərmanı dərhal Azərbaycan Respublikası Milli Məclisinə təqdim edir və Milli Məclis 24 saat ərzində bu məsələyə dair qərar qəbul edir.

Müharibə vəziyyətinin elan olunması, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsinin olması, xarici dövlətin və ya dövlətlərin Azərbaycan Respublikasına müharibə elan etməsi, ölkə ərazisinin müəyyən hissəsinin faktiki işğalı Azərbaycan Respublikasının bütün ərazisində və ayrı-ayrı yerlərində hərbi vəziyyətin tətbiq edilməsi üçün əsas ola bilər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 may 2007-ci il müvafiq sərəncamı ilə "Azərbaycan Resbublikasının milli təhlükəsizlik konsepsiyası" təsdiq olundu. Konsepsiyaya əsasən, Azərbaycan Respublikasının təhlükəsizlik mühiti deyildikdə, onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillərin məcmusu başa düşülür.

Bu konsepsiyasının həyata vəsiqə qazanması ölkənin Hərbi doktrinasının, xarici siyasət strategiyası, mədəniyyət, elm, təhsil, səhiyyə və nəqliyyat strategiyaları da daxil olmaqla, dövlət fəaliyyətinin müxtəlif sahələri ilə bağlı daha müfəssəl sənədlərin hazırlanmasını da zərurətə çevirdi.

Azərbaycan Respublikası Milli Məclisinin 8 iyun 2010-cu il tarixli Qərarı ilə "Azərbaycan Respublikasının Hərbi doktrinası" təsdiq edildi.

Bu mühüm sənədin hüquqi bazasını Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ hüquqi aktları, Milli təhlükəsizlik konsepsiyası, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir.

Hərbi doktrina ərazilərimizin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılması faktını Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinə təhdid kimi xarakterizə edir. Doktrinada Azərbaycan Respublikasının müdafiə siyasətinin beynəlxalq hüququn norma və prinsipləri əsasında formalaşdığı xüsusi qeyd olunur. Ermənistan Respublikasına və işğal etdiyi Azərbaycan ərazilərində qurduğu separatçı rejimə hər hansı siyasi, hərbi, iqtisadi və digər dəstək Azərbaycan Respublikasına qarşı əməl kimi qiymətləndirilir.

Doktrinada Silahlı Qüvvələrin quruculuğu sahəsində əsas prinsiplər də öz əksini tapıbdır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının nəzarəti altında olmaqla hərbi rəhbərliyin mərkəzləşdirilməsi və vahidliyi xüsusi qeyd olunub.

Ordunun daim döyüşə və səfərbərliyə hazır vəziyyətdə saxlanılması, struktur, döyüş heyətinin, say tərkibinin, texniki təchizatın və səfərbərlik resurslarının səmərəli yetərliyə uyğun olması, Azərbaycan Ordusunda və başqa silahlı birləşmələrin strukturlarında qulluq edən mülki şəxslərin hüquq və azadlıqlarının təminatı, o cümlədən hərbi qulluqçuların ictimai-siyasi təşkilatların fəaliyyətində iştirakının yolverilməzliyi və s. Hərbi doktrinanın mühüm prinsiplərindəndir.

### *Hərbi qulluqçuların hüquq və vəzifələri*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 dekabr 2011-ci il tarixli sərəncamı ilə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edildi. Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi sahəsində hərbi vəzifənin və hərbi xidmətkeçmənin hüquqi tənzimlənməsi qaydalarını müəyyən edir.

Hərbi qanunvericilik, şübhəsiz ki, həm də vacib tərbiyəedici rola malikdir. Normativ aktlarda hərbi quruculuğun ideya və prinsiplərinin əks olunması, bu normaların həyata keçirilməsinin təmin edilməsi hərbi qulluqçuların dünyagörüşünə, şüuruna və davranışına təsir göstərir, dövlətin müdafiə qüdrətinin gücləndirilməsində, hərbi hissə və gəmilərdə hüquq qaydalarının möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, hərbi qulluqçuların öz hüquq və vəzifələrini bilməsi, Azərbaycan hərbi qanunvericiliyinin müəyyən etdiyi qaydada xidmət etməsi, təminatlardan yararlanması üçün şərait yaradır. Bu baxımdan 1991-ci il dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası tərəfindən qəbul edilmiş "Hərbi qulluqçuların statusu haqqında" qanun xüsusilə diqqəti cəlb edir. Hərbi qulluqçular bu qanunla və Azərbaycan Respublikasının başqa qanunvericilik aktları ilə müyyənləşdirilən və hərbi xidmətin xüsusiyyətləri ilə bağlı olan məhdudiyyətlərlə Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarından istifadə edirlər. Hərbi qulluqçular Azərbaycan Respublikası vətəndaşlarının bütün vəzifələrini, habelə öz statusundan irəli gələn vəzifələri daşıyırlar.

Qanuna əsasən, hərbi qulluqçular Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunlarının tələblərini rəhbər tuturlar və siyasi məqsədlər güdən siyasi partiyaların və kütləvi ictimai hərəkatların üzvü ola bilməzlər. Dövlət sirrini açmamaq şərtilə, hərbi qulluqçuların söz və mətbuat azadlığına, əqidə azadlığına, öz əqidəsini sərbəst ifadə etməsinə təminat verilir.

Hərbi qanunvericiliyə uyğun olaraq, hərbi qulluqçular Azərbaycan Respublikasının mənafeyini, suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qorumağa, Hərbi and içməyə, Azərbaycan qanunlarına əməl etməyə, komandir və rəislərin əmrlərini qeyd-şərtsiz yerinə yetirməyə borcludurlar.

Azərbaycan Respublikasının vətəndaşı olan hərbi qulluqçu, eyni zamanda seçkili dövlət orqanlarına seçmək və seçilmək, şəxsiyyət toxunulmazlığı, əmək, pul və maddi təminat, istirahət, təhsil, təklif, ərizə və şikayət hüquqlarına malikdir. Eyni zamanda, hərbi qulluqçuların mənzillə təmin olunmaq, sağlamlığın mühafizəsi və sağlamlığa vurulmuş zərərin ödənilməsi, ailələrinin sosial müdafiəsi, pensiya təminatı hüquqları vardır. Qanunla hərbi qulluqçuların dini əqidə azadlığına təminat verilir.

Hərbi qulluqçuların hüquq və vəzifələri eyni zamanda Silahlı Qüvvələrin nizamnamələrində öz əksini tapmışdır. Silahlı Qüvvələrin İntizam, Daxili Xidmət, Qarnizon və Qarovul Xidmətləri, Sıra nizamnamələri hərbi hissə və bölmələrdə hərbi intizamın yüksək səviyyədə saxlanılmasını təmin edir, hərbi qulluqçuların ümumi vəzifələrini, onların arasındakı qarşılıqlı münasibətləri, əsas vəzifəli şəxslərin xidmət vəzifələrini müəyyənləşdirir, qarovul və qarnizon xidmətlərinin təşkili və həyata keçirilməsi qaydalarını göstərir, sıra təliminin hərbi qulluqçuların qarşısında qoyduğu tələbləri, habelə döyüş meydanında yerdəyişmə üsullarını bildirir.

Əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan dövlətçilik ənənələrinin qorunması, Azərbaycanın milli maraqlarına cavab verən addımların atılması, ölkənin istər beynəlxalq, istərsə də regionda özünəxas imicinin formalaşması vacib və təxirəsalınmaz məsələlərdəndir.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Qələbə gününün marşını ifa edəcəyik

Hərbi hissələrdə əsgərlərimizin asudə vaxtlarının səmərəli keçməsi üçün hər cür şərait yaradılıb. Onlar şahmat, futbol, voleybol oynayırlar, müxtəlif maarifləndirici viktorinalar və yarışlar keçirir, həmçinin musiqi alətlərində ifa etməyi bacaran gənclər silahdaşları üçün musiqi dəqiqələri təşkil edirlər.

Bölmə komandiri mayor Elşən Hüseynov əsgərlərimizdən birinin gitara ifaçısı olduğunu və tez-tez öz yoldaşları üçün milli və klassik musiqilər ifa etdiyini bildirdi. "Hər bir komandir çalışır ki, əsgərlərimizin asudə vaxtı səmərəli keçsin. Bunun üçün müxtəlif tədbirlər planlaşdırıb həyata keçiririk. Qeyd edim ki, onlar da öz səylərini əsirgəmirlər. Belə əsgərlərdən biri də Emil Səfərovdur. O, bölmədə xidmətə başladığı gündən yoldaşlarının asudə vaxtının səmərəli keçməsi üçün təşəbbüs göstərir, gitarası ilə bölmənin bütün tədbirlərində fəal iştirak edir. Əsgərlərimiz kitab, qəzet, jurnal mütaliə edirlər. Onların oxuduqları hər kitab biz komandirlərə hərtərəfli yardımçı olur, çünki nə qədər savadlı döyüşçülərimiz olsa, düşmənə döyüş meydanında



göz açmağa imkan verməyik. Əsgərlərimiz idmanla da məşğul olurlar. Əgər asudə vaxtımızdan yararlanmaq istəyiriksə, onu maraqlı edə bilərik, istər hərbi xidmətdə olsun, istərsə də mülki həyatda".

Fasilədə fürsətdən istifadə edərək əsgər Emil Səfərovla söhbət edirəm. Öyrənirəm ki, hərbi xidmətə Qaradağ rayonundan çağırılıb.

- Yetkinlik yaşıma çatandan sonra klassik və milli bəstəkarlarımızın əsərlərini dinləməyə üstünlük verdim. Ümumiyyətlə, öyrənməyi, öz üzərimdə çalışmağı çox sevirəm. Elə bir dövrdə yaşayırıq ki, bu gün öyrəndiklərimiz artıq sabah köhnəlmiş hesab edilir. Ona görə də hər birimiz öz üzərimizdə daim çalışmalıyıq. Musiqiyə olan marağım müəyyən bir müddətdən sonra məni gitarada ifa etməyə ruhlandırdı. Bu günə qədər musiqidə əldə etdiklərimi sərbəst öyrənmişəm, hələ də öyrənirəm. Musiqi mənim üçün həyatı daha dolğun anlamağa kömək edən, təbiət hadisələrini və insan hisslərini ifadə edən sehirli dünyadır. Düşünürəm ki, əgər qarşına hansısa bir məqsəd qoysan, mütləq ona nail olacaqsan.

"Hər bir sənət özü-özlüyündə çətindir və daim onunla məşğul olmağı tələb edir. Hərbi xidmətə gəldiyim gün komandirlərimə gitaramı gətirmək və asudə vaxtlarda əsgər yoldaşlarım üçün ifa etmək istədiyimi bildirdim. Onlar da bu təşəbbüsümü çox yaxşı qarşıladılar. Günümüz nə qədər qayğılı keçsə də, gitaranın simlərinə toxunduğum zaman bütün yorğunluğum çıxır. Həm də çox sevinirəm ki, az da olsa silahdaşlarımın istirahətində əməyim var", - bu sözləri əsgər Emil Səfərov dedi.

Həmsöhbətim qeyd etdi ki, boş vaxtlarında mütaliə etməyə də üstünlük verir. "Kitab seçərkən ehtiyatlı davranıram, çünki oxuduğum kitabların həyatıma, dünya görüşümün artmasına təsiri böyükdür. Bu səbəbdən daha çox tariximizlə bağlı, vətənpərvərlik mövzusunda kitablar oxuyuram. Xidmətə gəldiyim gündən komandirlərimin mənə öyrətdiklərinə dərindən yiyələnməyə çalışıram. Hər birimiz biliklərimizi təkmilləşdirməliyik. Bir arzum var: Böyük Qələbə gününün marşını ifa edənlərin sıralarında olmaq!".

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Fiziki hazırlıq*

# İdman - sağlamlıqdır



Şəxsi heyətin fiziki hazırlığının yüksək səviyyədə olması döyüşdə qələbəni təmin edən əsas amillərdən biridir. Əsgər fiziki cəhətdən möhkəmdirsə, o, qarşıya qoyulan tapşırığı operativ və yüksək səviyyədə icra etməyə qadirdir. Ordumuzda şəxsi heyətin fiziki hazırlığının və sağlamlığının yüksəldilməsinə yönəlik dərslər keçirilir, kütləvi idman tədbirləri, ordu birincilikləri təşkil olunur.

Düşmənlə mümkün əlbəyaxa döyüşlərdə fiziki cəhətdən hazırlıqlı əsgər məğlubedilməzdir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dediyi "Ən müasir silahı da əsgər idarə edir" fikri, döyüşdə əsgərin fəaliyyətinin daha mühüm əhəmiyyət kəsb etdiyinin sübutudur.

Ön xətdə yerləşən "N" hərbi hissəsində şəxsi heyətin fiziki hazırlığı ilə tanış oluruq. Komandirlərin rəhbərliyi altında müxtəlif hərəkətləri icra edən əsgərlərin fiziki cəhətdən hazırlıqlı olması ilk dəqiqələrdən hiss olunur. Ardıcıllıqla turnikdə və paralel qollarda çalışmalar icra edən əsgərlərin hər biri normativləri vaxtında və dəqiqliklə yerinə yetirirlər.

Əsgər Mobil Qəribov bildirdi ki, idmanla müntəzəm məşğul olmaq hər bir kəs üçün vacib şərtdir. "İdman insanın bədənini möhkəmləndirir və xəstəliklərə qarşı müqavimətini artırır. Fiziki göstəriciləri yüksək olan əsgər qarşıya qoyulan bütün tapşırıqları çeviklikə yerinə yetirməyə qadirdir. Keçirilən fiziki hazırlıq məşğələləri mürəkkəb relyefdə, çətin iqlim şəraitində hərəkət etməyimizə yardımçı olur".

Əsgər Muradxan Qasımov fiziki və döyüş hazırlığının qarşılıqlı əlaqə təşkil etdiyini dedi. "İdman əsgərin döyüş ruhuna müsbət təsir edən amillərdən biridir. Döyüş hazırlığı və fiziki hazırlıq bir-biri ilə vəhdət təşkil edir. Komandirlərimiz bizi məlumatlandırarkən bildirdi ki, fiziki və döyüş hazırlığı yüksək olan əsgər daha cəld və çevik olur, verilən tapşırıqların tez müddətdə öhdəsindən gəlir. "Hərbi xidmətdə olduğum müddətdə əsgər dostlarımla birlikdə idmanla müntəzəm məşğul oluruq. "İdman sağlamlıqdır" deyib atalarımız. İdman təkcə hərbi xidmətdə olanlar üçün deyil, hər bir fərd üçün zəruridir."



Əsgər Məhərrəm Şahsuvarov yaradılan şəraitin onların bədən tərbiyəsinin inkişafına xüsusi töhfə verdiyini vurğuladı. "Bölməmizdə şəxsi heyətin fiziki göstəricilərinin artırılması üçün bütün şərait yaradılıb. Hərbi şəhərcikdə fiziki hazırlıq çalışmalarını yerinə yetirmək üçün idman qurğuları quraşdırılıb. Hərbi xidmətə gələrkən turnikdə dartınma hərəkətini etməkdə çətinlik çəkirdim. Burada komandirlərimin və əsgər yoldaşlarımın köməkliyi ilə turnikdə dartınma çalışmasını və fiziki hazırlığın digər çalışmalarını düzgün yerinə yetirməyə başladım".

İdmanın qaydasız döyüş növü üzrə üçqat respublika çempionu əsgər Tural Fərzəliyev fiziki çalışmaları yerinə yetirərkən əsl idmançı olduğunu da sübut etdi, söhbəti ilə Vətəninə bağlılığını da. "Oğullarımız istər idman arenalarında, istərsə də döyüş meydanında hər zaman düşmənə güclü rəqibdirlər. Hərbi xidmətə gəlməmişdən əvvəl məşq yoldaşlarım erməni idmançılarının gücsüz, zəif olduğunu deyirdilər. Bədnam qonşularımız bizim idmançıları özlərinə həmişə "arzuolunmaz" rəqib sayırlar. Hər bir idmançı və hərbi qulluqçunun müqəddəs vəzifəsi üçrəngli bayrağımızı yüksəkliklərdə dalğalandırmaqdır. Aprel döyüşlərində azad etdiyimiz Lələtəpə yüksəkliyində bu gün dalğalanan bayrağımız gün gələcək işğal altında olan digər torpaqlarımızda da dalğalanacaq".

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## İraqın şimalında daha on terrorçu məhv edilib



Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcıları İraqın şimalında yerləşən Avaşin-Basyan və Zap bölgələrindəki terror düşərgələrinə zərbələr endirib.

Dəqiq hədəflərin vurulması ilə 10 terrorçu zərərsizləşdirilib. Digər bir məlumatda isə bildirilir ki, sentyabrın 6-da Türkiyənin Mardin bölgəsində terrorçu hədəflərin bombalanması nəticəsində məhv edilən terrorçuların şəxsiyyəti müəyyənləşib. Onlardan biri Mehmet Sait Sürer təhlükəli terrorçu kimi Türkiyənin təhlükəsizlik orqanları tərəfindən axtarışda olub.

## Moldova müstəqillik dövründə ilk dəfə olaraq hərbi strategiyasını qəbul edib



Moldova hökuməti müstəqillik dövründə ilk dəfə olaraq 2018-2022-ci illəri əhatə edən hərbi strategiya planını qəbul edib.

Moldovanın Müdafiə naziri Eudjen Sturza mətbuata açıqlamasında bildirib ki, hərbi strategiya planı ölkənin müdafiə imkanlarının gücləndirilməsi məqsədilə qəbul olunub. Nazirin sözlərinə görə, hərbi strategiya milli təhlükəsizliyə qarşı müasir çağırışlara cavab verir. Sənəddə yeni silahlanmadan tutmuş, orduda şəxsi heyətin sayının artırılmasına qədər bütün məsələlər yer alıb.

Sənəd Müdafiə Nazirliyi tərəfindən Daxili İşlər Nazirliyinin nümayəndələrinin iştirakı və beynəlxalq ekspertlərin dəstəyi ilə hazırlanıb.

## Əfqanıstanda ABŞ-ın kəşfiyyat təyyarəsinin qəzaya uğraması nəticəsində 11 nəfər ölüb



ABŞ-a məxsus C-130J "Herkules" tipli nəqliyyat təyyarəsi ötən gecə Əfqanıstanın şərqindəki Cəlalabad şəhərində yerləşən aerodromda qəzaya uğrayıb.

CBS News telekanalının ABŞ hərbi mənbələrinə istinadən yaydığı məlumata görə, qəza nəticəsində 11 nəfər həlak olub. Ölənlərin 6-sı təyyarənin ekipaj üzvləri, 5-i isə NATO-nun Əfqanıstandakı missiyasının əməkdaşları olan mülki şəxslərdir.

"Taliban" hərəkatı təyyarənin onlar tərəfindən vurulduğunu bildirsə də, ABŞ hərbi komandanlığı bu məlumatı təsdiqləməyib və qəzanın səbəblərinin müəyyən olunması üzrə təhqiqatın davam etdiyini bildirib.

2014-cü ildə Amerikanın hərbi kontingenti Əfqanıstanı tərk etdikdən sonra ölkənin cənub rayonlarının bir çoxu "Taliban" hərəkatının nəzarətinə keçib. Son zamanlar bəzi kənd rayonlarında üstünlüyə yiyələnən yaraqlılar böyük şəhərlər istiqamətində də hücumlarını davam etdirir. Həmçinin regionda İŞİD qruplaşması da aktiv fəaliyyət göstərir.

## Misirdə terror aktları törədilməsini planlaşdıran 15 terrorçu məhv edilib



Misirin Daxili İşlər Nazirliyi Sinay yarımadasının şimalında Əl-Ariş şəhərində 15 terrorçunun zərərsizləşdirilməsi barədə məlumat yayıb.

Terrorçu ünsürlərin Əl-Ariş şəhərində yerləşən fermaların birində yerləşməsi barədə operativ məlumat alan təhlükəsizlik qüvvələri ekstremistlərin dərhal zərərsizləşdirilməsi əməliyyatını həyata keçiriblər. Atışma nəticəsində bütün terrorçular məhv edilib. Qeyd olunur ki, terrorçular Misirdə keçiriləcək "6 Oktyabr - Qələbə Günü" bayramında terror aktları törətməyi planlaşdırırmış.

Məlumatda, həmçinin döyüşçülərin zərərsizləşdirildiyi yerdə 5 avtomatik silah, 4 tüfəng, 3 partladıcı qurğu və çoxlu sayda döyüş sursatı aşkarlandığı bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

*Könlüm şeir istəyir*

# “Mən də sözün əsgəriyəm”



*Duyanlar üçün küləyin əsməsi də şeirdi, yarpaqların titrəməsi də, şimşək çaxışı da şeirdi, bulaqların axışı da, dan yeri qızaranda meh də, ləçək üstə şeh də, günlü yağışdan sonra qövsi-qüzeh də ... Bunları şairlər görür, duyur, şeirləşdirir. Bu, vətənpərvərlikdi, oxucusunu vətənləşdirmək missiyasıdı. Tufarqanlı Abbasın "Bənövşə"si, Natəvanın "Qərənfil"i, Zəlimxan Yaqubun "Bulağ"ı, ... kimi şeirlər oxuyanın könül dünyasının nuruna qarışır. Bu ünsiyyət şeirin (şeiriyyətin, poeziyanın) qüdrətidi. Oxucu bu qüdrətin daşıyıcısı olan şeirləri duyğularına üzərlik bilir...*

*Knyaz Aslan qəzetimizin ilk əməkdaşlarından olub. Müharibənin ilk vaxtlarından səngərlərdə əsgərlərimizlə çox kəlmələşib. Vətəni sevən şair poetik duyumuyla, poetik təfəkkürüylə sevdirməyi də bacarır. Tam məsuliyyətiylə, şeirlərinin zəmanətiylə deyirik ki, Knyaz Aslan belə şairlərdəndir; sevgisimi güclüdü, sevdirmək missiyasımı, ayırd etmək mümkün deyil...*

*Bakı Dövlət Universitetinin kafedra müdiri Knyaz Aslanın "Mən də sözün əsgəriyəm!", - deməyə haqqı var...*

**"Azərbaycan Ordusu"**

## Gözlə məni, gələcəyəm...

Ay sevgilim, nişanımız yubanır,
Gözlə məni, gələcəyəm, gözlə sən...
Ana yurdun bizə gəlir gümanı,
Gözlə məni, gələcəyəm, gözlə sən...

Qarı düşmən silahlanıb zəhərlə...
Döyüşürük cəsarətlə, hünərlə,
Dönəcəyik xoş müjdəli zəfərlə,
Gözlə məni, gələcəyəm, gözlə sən...

Zalım yağı hər addımda şər gizlər,
Qan ağlayır bənövşələr, nərgizlər...
Sevən ürək həsrət çəkər, nər gözlər,
Gözlə məni, gələcəyəm, gözlə sən...

Evlənməyib əsgərlərin çoxusu,
Ərşə çıxıb subayların yuxusu...
Qələbədi bizə Vətən duyğusu,
Gözlə məni, gələcəyəm, gözlə sən...

Bir qaladır hər igidin anası,
Bizimlədir anaların duası...
Ay könlümün yol gözləyən sonası,
Gələcəyəm, gözlə məni, gözlə sən...

Sevindirək Xocalını, Şuşanı,
Uca tutsun Ana Vətən başını.
Qurban olum, sil gözünün yaşını,
Gözlə məni, gələcəyəm, gözlə sən...

And içmişik Koroğluya, qılınca,
Qayıtmarıq biz qələbə çalınca...
Gələcəyik Qarabağı alınca,
Gələcəyəm, gözlə məni, gözlə sən...
Gözlə məni, gələcəyəm, gözlə sən..

## Ürəyimə qoymuşam səni

Vətən!..
Ürəyimə qoymuşam səni!..
Ürəyim sinəndə döyünür, Vətən!..
Sənin ucalmağın ucaldır məni,
Qəlbim vüqarınla öyünür, Vətən!..

Sən Ata Vətənsən, Ana Vətənsən!..
Dilimin ən şirin kəlməsi sənsən!..
Könlümün ən gözəl nəğməsi sənsən!..
Vətən!.. Ürəyimə qoymuşam səni!..
Səninlə bir yerdə mən də Vətənəm!..
Biz - bizik, mən sənəm!..
Vətən!.. Ürəyimə qoymuşam səni!..

Babamın müqəddəs torpağı bilib,
Nənəmin bayatı yarpağı bilib,
Ömrümün, günümün sübh çağı bilib,
Vətən!.. Ürəyimə qoymuşam səni!..
Vətən!..
Ürəyimə qoymuşam səni!..
Sənə göz dikənlər olarsa əgər,
Adını qəlbimdən çıxarmaq üçün
Əgər torpaq basıb gələ bilsələr,
Əvvəlcə qoy məni güllələsinlər!..

## Qələbə çal, qələbə!

İgid əsgər, bu gün qeyrət günüdür,
Dosta sevgi, yada nifrət günüdür.
Qisas günü, şərəf, şöhrət günüdür,
Qələbə çal, qələbə çal, qələbə!..

Murov dağdan haray çəkir Kəlbəcər,
Şuşa - namus, Laçın - qeyrət, biz - əsgər...
Qana həris düşmənlərə sinə gər,
Qələbə çal, qələbə çal, qələbə!..

Azərbaycan - nur dünyası dünyada...
Azərbaycan - od içində bir ada...
Xocalını, Zəngilanı sal yada,
Qələbə çal, qələbə çal, qələbə!..

Bizimkidi...
Araz desin, Kür desin,
Göy küşnəsin...
Yer dikəlsin, yer desin...
Qarabağım - Tanrı verən dürr desin,
Qələbə çal, qələbə çal, qələbə!..

Azad olsun, abad olsun torpağım,
Şad yaşasın ana yurdum, oylağım.
Xankəndidə dalğalansın bayrağım,
Qələbə çal, qələbə çal, qələbə!..
Qələbə çal, qələbə çal, qələbə!..

## Vətən dərdi

Aman Allah, iraq eylə
Ömrümüzdən ötən dərdi...
Gözümüzdən uzaq eylə
İlim-ilim itən dərdi...
Sızıldayır köhnə yaram,
Duz səpmişəm - olmaz aram...
Göz yaşımla suvararam
Ürəyimdə bitən dərdi...

Ey Cavanşir, ulu Babək!..
Dayanmışam Koroğlu tək!..
Qıratımla ötəm gərək
Düratıma yetən dərdi!..

Qəlbim istər el gülünü,
Qarabağın bülbülünü...
Qarğayıram gül tülünü
Qarsalayıb ütən dərdi...

Yad eldə saray qəfəsdi,
Doğma yurdda koma bəsdi!..
Ana qədər müqəddəsdi
Torpaq dərdi, Vətən dərdi!..

## Səadət

Bu torpağın çəməni min, çölü min,
Hər nəğməsi bir dastandır dilimin.
Saf ürəkli, duz-çörəkli elimin
Şanısına bal olmağım - səadət!..

Şeir-sənət qalasıdır sinəm ki...
Ulu dünya meydanında kiməm ki?!.
Öz səhvimə gərək özüm dinəm ki,
Deməsinlər, lal olmağım - səadət!..

Gecə-gündüz ömür adlı yapıncı,
Yol gedirəm ümidimin dalınca...
Əllərimdə Koroğlumun qılıncı,
Babəkimə qol olmağım - səadət!..

Od oğluyam - ulusum od əməndi,
Yandıraram həsrət qollu kəməndi...
Kişnərtisi dağ oynadan səməndin
Dırnağına nal olmağım - səadət!..

Baxışlara qırov salır ayazım...
Knyaz Aslan, at üstədir murazım:
Ürəyimi bölüb keçən Arazın
Sevincinə yol olmağım - səadət!..

## Şəhidlər

Şərəfi həmişə ucadan uca,
Vətənin adında yaşar şəhidlər!..
Baş əyər ruhuna hər cavan, qoca,
Qəlblərdə çeşmətək daşar şəhidlər!..

Odlu güllələrdən baxar güllərə,
Yazar öz adını şanlı illərə,
Qan verib qırmızı qərənfillərə,
Torpağa nəğmələr qoşar şəhidlər!..

Atasan, Anasan, ey əziz Vətən!..
Yolunda qurbandır, bu baş, bu bədən!..
Dostlara arxadır, düşmənə kəfən!..
Ölməz babalara qoşar şəhidlər!..

Üz tutub müqəddəs bir ülviyyətə,
Vətənlə yol gedər əbədiyyətə...
Dönər şücaətə, dönər şöhrətə,
Cəsurlar qanında coşar şəhidlər!..

İgiddir torpağın bağrında bitən,
Adına and içər bu yoldan ötən...
Unutmaz millətim,
Unutmaz Vətən!..
Əsrlər, nəsillər aşar şəhidlər!..

Hər oğul qəlbində haqq daşıyınca!..
Var olar Azadlıq haqq yaşayınca!..
Vətən yaşayınca, xalq yaşayınca,
Tarixlər boyunca yaşar şəhidlər!..
Bu millət olunca yaşar şəhidlər!..

# İdman

## Ağdamın “Qarabağ” komandası UEFA Avropa Liqasında növbəti oyununu keçirib



Oktyabrın 4-də Ağdamın "Qarabağ" komandası futbol üzrə UEFA Avropa Liqasının qrup mərhələsinin ikinci turu çərçivəsində Londonun "Arsenal" klubu ilə qarşılaşıb.

Bakı Olimpiya Stadionunda keçirilən görüşdə qonaqlar 0:3 hesabı ilə qalib gəliblər.

Qarşılaşmanın 4-cü dəqiqəsində "Arsenal" klubunun heyətində Sokratis Papastathopoulos baş zərbəsini dəqiq yerinə yetirib - 0:1. İlk hissə bu hesabla başa çatıb.

Matçın 53-cü dəqiqəsində qapıçı ilə təkbətək qalan Emil Smit Rove fürsəti əldən verməyib - 0:2.

Görüşün başa çatmasına 10 dəqiqə qalmış Matteo Qenduzi adını tabloya yazdırıb - 0:3. Görüş bu hesabla da başa çatıb.

## Azərbaycanın qadın şahmatçıları Ukrayna komandası ilə heç-heçə edib




Gürcüstanın Batumi şəhərində keçirilən 43-cü Ümumdünya Şahmat Olimpiadası davam edir.

Oktyabrın 3-də keçirilən doqquzuncu turda Azərbaycanın kişilərdən ibarət komandasının rəqibləri çinli idmançılar olub. Azərbaycan-Çin görüşündə Şəhriyar Məmmədyarov - Dinq Liren, Teymur Rəcəbov - Yu Yanqyi, Arkadi Naydiç - Vey Yu və Eltac Səfərli - Bu Syanci cütlükləri qarşılaşıb. Komandamız rəqibinə məğlub olub - 1,5: 2,5.

Qadın şahmatçılarımız isə Ukrayna komandası ilə yarışıb. Azərbaycan - Ukrayna görüşündə Günay Məmmədzadə - Anna Muzıçuk, Xanım Balacayeva - Marina Muzıçuk, Gülnar Məmmədova - Anna Uşenina və Ülviyyə Fətəliyeva - Yuliya Osmak qarşılaşmaları keçirilib. Oyun heç-heçə başa çatıb - 2:2.

Qadın komandaların mübarizəsində ilk iki yerdə Çin və Ukrayna yığmaları qərarlaşıb. Aktivində 14 xal olan Azərbaycan komandası altıncı pillədədir.

## Azərbaycanın qadın voleybolçuları dünya çempionatında Trinidad və Tobaqo yığmasına qalib gəliblər



Oktyabrın 3-də qadınlar arasında voleybol üzrə Yaponiyada keçirilən dünya çempionatının ilkin qrup mərhələsində Azərbaycan millisi Trinidad və Tobaqo yığması ilə qarşılaşıb. İnamlı oyun nümayiş etdirən Azərbaycan yığması 3:0 hesabı ilə qalib gəlib.

Gərgin idman mübarizəsi şəraitində keçən oyunda qızlarımız birinci seti 29:27 hesabı ilə başa vurublar. İkinci setdə tam üstünlüyə yiyələnən millimiz 25:16 hesabı ilə qalib gəlib. Üçüncü setdə də rəqibinə heç bir şans verməyən voleybolçularımız 25:17 hesablı qələbə qazanıblar (3:0).

Azərbaycan yığması Trinidad və Tobaqo üzərində qələbə sayəsində növbəti mərhələyə vəsiqəni vaxtından əvvəl təmin edib. Hazırda komandamız 6 xalla qrupda dördüncü sıradadır.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məmmədov Ravil Ələddin oğluna verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Samir HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 806
Nüsxə 3525